## FƏNN BİLGİSİ

# Azərbaycan dili və ədəbiyyatı

(1) **1. Hansı sözün yazılışı düzgündür?**
A) büllur
B) lahiyə
C) ekalogiya
D) ümüd

(1) **2. Hansı cümlədəki sifətlər *yalnız* çoxaltma dərəcəsindədir?**
A) Qırmızımtıl almanı uşaqların ən böyüyünə verdi.
B) Ala gözləri qüssədən yaşla dolan sarışın qız içəri daxil oldu.
C) Bozumtul kastyum ona yeni rolu oynaya bilmək üçün lazım idi.
D) Güllərin bəzisi qıpqırmızı,bəzisi isə sapsarı idi.

(1) **3. Hansı cümlədə durğu işarəsi düzgün işlənmişdir ?**
A) Hamı, qohumlar, tanışlar, yaxınlar gəlmişdi.
B) Hamı, yəni: qohumlar, tanışlar, yaxınlar gəlmişdi.
C) Qohumlar, tanışlar, yaxınlar – hamı, gəlmişdi.
D) Qohumlar, tanışlar, yaxınlar – bir sözlə: hamı gəlmişdi.

(6) **4. Aşağıdakı cümlələrdə morfoloji və sintaktik səhvlərə yol verilmişdir. Səhvləri tapın, düzgün formada qeyd edin. Müəllim nəyi bilməlidir ki, bənzər səhvə yol verməsin?**

*Qeyd edək ki, düzgün yazılmış sözü səhv formada dəyişsəniz xal itirəcəksiniz.*

Gəncin şöhrəti yayıldı bütün ölkəyə. Padşah onunla görüşmək istədi. Söhbət zamanı gəncin ağlına heyran qalan hökmdar onu böyük bir şəhərin Valisi təyin etdi. Ona bir dənə də köməkçi verdi. Camaat onları şəhərə yola saldılar.

(2) **5. Cümlədə yol verilmiş səhvi təyin edin. İzah edin. Müəllim nəyi bilməlidir ki, bənzər səhvə yol verməsin ?**

*Yerin peyki aydır , digərlərini bilmirəm .*

**6. Linda Malali Hantın „Ağacdakı balıq“ hekayəsindən verilən parçanı oxuyun və 6.1.-6.4. tapşırıqları yerinə yetirin:**

***

– Hey, diqqət, fantastik olanlar, yerlərinizi alın! – bizim yeni müəllimimiz, Mister Daniel bizə müraciət etdi, - mən oxumağı çox sevirəm və sizə sevdiyim bir neçə kitab haqqında məlumat verəcəm.

Böyük məmnuniyyətlə ona qulaq asıram, lakin məndən kitab oxumağımı istəsə, bu xərçəngdən tenis oynamağını istəmək kimi bir şeydir.

– Sizin üçün kiçik sürprizim var. Hamınıza qeyd dəftəri hədiyyə edəcəyəm. O, içinə hər gün yazacağınız gündəliyiniz olacaq.

Aman, yox. Təkcə bu olmasın!..

– Bəzən sizə mövzular verəcəyəm. Yazılarınızı isə heç vaxt yoxlamayacağam!

O nə dedi?

– Beləliklə, sizə qiymət yazmayacağam. İstəsəniz özünüz, idman, hansısa ölkə, kitab, istənilən şey haqqında yaza bilərsiniz.

Bizi yoxlamayacaq? İstənilən mövzuda? Mənə inandırıcı gəlmir.

– Sadəcə bir neçə qayda var.

Həə, təbii ki, qaydalar.

– Mütləq nə isə yazmalısınız. Bəzən mən cavab olaraq sizə bir-iki cümlə yazacağam.

Mənə sarı rəng düşdü. Ən sevdiyim rəng.

– İndi qeyd dəftərinizi açın və ilk qeydinizi edin. Çalışın özünüzü səciyələndirəsiniz. Bunu hansı formada edəcəyinizin fərqi yoxdur.

Qara rəng boyayacağım, böyük, üçölçülü kub çəkəcəyəm. O dedi ki, istədiyiniz şeyi edə bilərsiniz. İkinci gün Mister Daniel gündəliyimi vərəqləyib dedi.

– Sizə söz verdim və nə isə düzəltmək niyyətində deyiləm. Sadəcə maraqlanıram, Eli, əgər narazı deyilsənsə, bizə izah elə, nə üçün qara kub çəkdin? Qara rəngi xoşlayırsan, yoxsa başqa nə isə demək istəyirsən? İstənilən cavab qəbul ediləndir.

– Qaranlıq otaqdır.

– Oh, bəs nə üçün qaranlıq otaq çəkdin?

– Bizim haqqımızda nə isə olmalı idi.

– Qaranlıq otağın səninlə nə əlaqəsi var, Eli? – sakit və xoş səslə soruşdu.

– Qaranlıq otaqda məni heç kəs görməyəcək, - sakitcə dedim.

– Yaxşı, səmimiyyətin üçün sənə təşəkkür edirəm, Eli.

Ürəyimi oxşayır. Əsəbi deyil.

– Eli, - birdən-birə davam edir, - deyə bilərsənmi, niyə səni görmələrini istəmirsən?

– Fikrimcə, gözəgörünməz olsaydım daha asan olardı.

– Niyə?

Çiyinlərimi çəkirəm. Cavab vermək istəyirəm, lakin çoxlu deyəcəklərim var və söz tapa bilmirəm.

– Yaxşı, sevinirəm ki, gözəgörünməz deyilsən, Eli. Bu sinif sənsiz tamamilə başqa olardı.

Baxıram və anlayıram ki, indiyə qədər müəllimimin gözlərinə baxmamışam. Nəyi səhv etdiyimi mənə izah edənə qədər hey gözlərim müəllimin qarnına zillənirdi.

**6.1. – 6.2. tapşırıqların şərtləri ilə tanış olun və hər bir sualın təxmini cavablarından, mətnə əsasən düzgün olan variantı seçin.**

(1) **6.1. Aşağıda sadalananlardan hansı düzgün <u>deyil</u>?**

Mister Daniel şagirdlərinə müraciət edir: **„fantastik olanlar“**, çünki:

A) Uşaqlarda hər birinin unikal olması ilə bağlı hiss yaratmaq istəyir;

B) Əmindir ki, hər uşaq yaradıcılıq bacarıqlarına sahibdir və fantastikdir;

C) Uşaqlarda özlərinə qarşı müsbət mövqe formalaşdırmaq istəyir;

D) Əmindir ki, bu müraciəti ilə özünə və hər birinə önəmli olduqlarını hiss etdirir.

(1) **6.2. Eli özünü səciyyələndirərkən üçölçülü kub çəkir:**

A) Çünki tapşırıqlara qarşı mənfi mövqe ifadə etmək istəyir;

B) Çünki o, yazı yazmaqda çətinlik çəkir. Qara isə onun sevimli rəngidir və özünü səciyyələndirərkən bu yolu seçir;

C) Çünki o, sosiallaşma problemi yaşayır; Qara kub isə bizə onun özünü ətraf mühitdən qoruma istəyinə işarə edir;

D) Çünki bu şəkil ilə müəllimnin göstərdiyi səhvi mütləq düzəldə biləcəyini göstərir.

**6.3.-6.4. tapşırıqlarının şərtlərini diqqətlə oxuyun. Fikrinizi aydın, yığcam və əsaslandırılmış şəkildə təqdim edin. Əsaslandırılmış mülahizə məntiq baxımından formalaşmış və ədəbi dil normaları əsasında tərtib olunmalıdır.**

(2) **6.3.** Eli, Mister Danielin son sualına cavab vermək üçün söz tapa bilmir, lakin **deyiləcək çox şey var...** Elinin nə deyə biləcəyi haqqında mülahizə yürüdün.

(2) **6.4. „Bu sinif sənsiz tamamilə fərqli olardı.“** Mister Daniel bu cümləsində nə nəzərdə tutur və, ümumən, onun pedaqoji mövqeyinin nə ilə fərqləndiyini müzakirə edin.

(4) **7. Qabilin " Səhv düşəndə yerimiz" şeirini oxuyun. 7.1. və 7.2. tapşırıqlarını yerinə yetirin.**

Duman dağı dolanar,
Qiyamət olar.
Duman yola sallanar,
Müsibət olar.
Müsibət oluruq biz,
Səhv düşəndə yerimiz.

Ümman gəmisi çayda
Oturar, üzməz!
Çay gəmisi dağ boyda,
Dalğaya dözməz.
Dözümsüz oluruq biz,
Səhv düşəndə yerimiz.

(2) **7.1. Şeirdə "Duman dağı dolanar", "Duman yola sallanar", "Ümman gəmisi çayda oturar" cümlələri məcazi mənada verilmişdir . Üçündən birini seçin, onu izah edin və şeirdə hansı bədii funksiya daşıdığı haqqında mülahizə yürüdün.**

(2) **7.2. Müəllifin əsas fikrinin nə olduğu haqqında mülahizə yürüdün. Şeirdəki əsas problemi ümumiləşdirin.**

## Arqumentli esse

Tapşırıqda verilmiş iki bir-birinə zidd olan müddəalarla diqqətlə tanış olun, onlardan birinin lehinə seçim edin. Seçiminizi əsaslandırmaq üçün arqumentlər gətirin. İkinci müddəanı isə tənqidi qiymətləndirin.

a) Müasir məktəb şagirdin yaradıcılıq bacarıqlarının inkişaf etdirilməsinə xüsusi qayğı göstərməlidir, ona görə ki, onlar istənilən şəraitdə alternativ yanaşmalarla hərəkət edən, orijinal təfəkkürə malik vətəndaşlar olsunlar.

b) Yaradıcılıq birmənalı şəkildə şəxsi, insanın özünəməxsus xüsusiyyətidir. ona görə də məktəb bu qabiliyyəti şagirddə inkişaf etdirə bilməz. Məktəb təhsilinin məqsədi qanuna tabe olan, yüksək mənəvi dəyərlərə malik vətəndaşlar yetişdirmək olmalıdır.